**Hazırda dövlət başçısı tərəfindən aparılan siyasətin mərkəzində Azərbaycan vətəndaşı, vətəndaş rifahının təminatı prinsipi dayanır və bu prinsip, ilk növbədə, əhalinin rifahına yönəldilməsi, onun sosial müdafiəsinin gücləndirilməsi istiqamətində ardıcıl addımların atılması ilə özünü göstərir. Prezidentin ölkəyə rəhbərliyi dövründə maaşların 7 dəfə, pensiyaların 9 dəfə, minimum əməkhaqqının 6,5 dəfə artması dediklərimizi təsdiq edir. Dövlət başçısının cari ildə təqdim etdiyi iki sosial paketin yüksək səviyyədə reallaşması, sosial inkişaf, sosial rifahın yüksəldilməsi istiqamətində bir-birinin ardınca inqilabi xarakterli addımların atılmasını təmin edib.**

# Ölkəmizdə sosial inkişafın daha bir göstəricisi – yeni sosial paket



Bu ilin ilk aylarında təqdim edilən birinci sosial islahatlar paketi nəticəsində minimum əməkhaqqının martın 1-dən 40 faiz artırılaraq 180 manata, pensiyanın minimum məbləğinin isə 116 manatdan 160 manata çatdırılması 830 min insana şamil edildi. Aprelin 1-dən sosial təminat sisteminin əhatə dairəsi daha da genişləndirildi: 14 kateqoriyaya aid şəxslər üzrə sosial müavinətlər, 9 kateqoriyaya aid şəxslər üzrə isə Prezidentin aylıq təqaüdlərinin məbləği orta hesabla 100 faiz artırıldı, 2 yeni təqaüd növü -- sağlamlıq imkanları məhdud uşaqlara və I dərəcə əlilliyi olan şəxslərə qulluq edənlərə dövlət başçısının aylıq təqaüdü təsis olundu. Sosial müavinət alan I dərəcə əlillərə verilən Prezidentin aylıq təqaüdü pensiya alan I dərəcə əlilliyi olanlara da şamil edildi. Sayı 80 minədək olan müharibə veteranlarına aylıq təqaüdlər təsis olundu. Sosial müavinət və təqaüd artımları, təsis olunan yeni təqaüdlər 600 minədək vətəndaşın rifahını yaxşılaşdırdı ki, bunların da 300 mini əlilliyi olan şəxslərdir. Bunlardan əlavə, məcburi köçkünlərin aylıq müavinəti 50 faiz artırıldı, 800 min vətəndaşın problemli kreditləri həll olundu, tələbələrin təqaüdlərində əhəmiyyətli artımlar edildi. Ümumilikdə, cari ilin ilk rübündə reallaşdırılan və dövlətin illik 1,9 milyard manat maliyyə yükünü üzərinə götürdüyü birinci sosial paket 3 milyona yaxın insanın rifahına mühüm dəstək kimi cəmiyyət tərəfindən yüksək dəyərləndirildi.

Sentyabrın 1-dən etibarən, icrasına başlanılan ikinci sosial paketi əhatə edən 18 iyun 2019-cu il tarixli sərəncamlar, minimum pensiyanın artırılması üçün yeni qanunvericilik təşəbbüsü isə əhalinin rifah halının yaxşılaşdırılması istiqamətində inqilabi addımların ardıcıl xarakter aldığını göstərir. Bu sərəncamların icrası ilə ölkədə minimum əməkhaqqının, həmçinin müxtəlif sahələrdə çalışanların maaşlarının artırılmasına başlandı. İkinci sosial islahat paketinin əsas məğzini minimum əməkhaqqının artırılması təşkil edir. Bu il fevralın 8-də cənab Prezident minimum əməkhaqqını 130 manatdan 180 manata qədər yüksəltmişdisə, iyunun 18-də imzaladığı sərəncamla bu məbləğ ikinci dəfə artırılmaqla, 180 manatdan 250 manata çatdırıldı. Beləliklə, 1 il ərzində minimum əməkhaqqı 2 dəfəyə qədər artırıldı ki, bu da kifayət qədər yüksək göstərici olmaqla yanaşı, əhalinin maddi vəziyyətinin yüksəlməsinə təsir edən başlıca amildir. Əgər fevralın 8-də minimum əməkhaqqının artırılması 600 min nəfəri əhatə edirdisə, yeni sərəncamla bu artım 950 min nəfərə şamil olunur. Bu insanların 300 min nəfəri özəl sektorda, 600 minə yaxını isə dövlət sektorunda çalışan vətəndaşlar, o cümlədən Vahid Tarif Cədvəli ilə maaş alan səhiyyə və təhsil işçiləridir. Təkcə minimum əməkhaqqının artırılmasına dövlət büdcəsindən əlavə olaraq ildə 780 milyon manat vəsait xərclənməsi nəzərdə tutulub.

Yeni sosial paketə uyğun olaraq hərbi və hüquq-mühafizə orqanlarında çalışanların aylıq vəzifə maaşları 40 faiz həddində, həm peşə, həm də ümumtəhsil məktəblərində diaqnostikadan keçən müəllimlərin maaşları isə 20 faiz artıb. Təkcə bu il ərzində 4 milyon insanın sosial rifahını yaxşılaşdırmaq üçün 4 milyard manat əlavə vəsait sərf olunacaq və 2019-cu il Azərbaycanda sosial rifah ili kimi tarixə düşəcək. Prezidentin imzaladığı yeni sosial paket bu istiqamətdə həyata keçirilən dövlət siyasətinin məntiqi davamı, silsilə tədbirlərin növbəti mərhələsidir. Bu, vətəndaşlarımızın sosial cəhətdən müdafiəsini gücləndirmək, onlara dövlət qayğısını daha da artırmaq məqsədinə xidmət edir.

Fəxrlə deyə bilərik ki, sözügedən artımlardan sonra minimum əməkhaqqına görə, respublikamız Cənubi Qafqaz ölkələri arasında birinci yerdə durur.

Qeyd edək ki, reallaşan iki sosial paketlə minimum əməkhaqqının məbləği 93 faiz artırılmış olur. Bununla ölkəmizdə ilk dəfə olaraq minimum əməkhaqqının məbləği yaşayış minimumunu (180 manat) üstələyərək, ondan 70 manat çox olub. Bu, Azərbaycan dövlətinin sosial siyasətinin növbəti uğuru olmaqla ölkəmizdəki sosial inkişafın daha bir göstəricisidir. Onu da xüsusi olaraq diqqətə çatdırmaq lazımdır ki, əməkhaqları artan 950 min nəfərin heç də hamısı 250 manatdan aşağı əmək haqqı alanlar deyil və onların mühüm bir hissəsi 250 manatdan yuxarı maaş alırlar. Ümumilikdə, ikinci sosial paket 1 milyon 350 min nəfəri əhatə edir ki, onlardan da 1 milyonu dövlət, qalanları özəl sektorda işləyənlərdir.

Onu da qeyd etmək lazımdır ki, sərəncama uyğun olaraq minimum əməkhaqqının artırılması, eyni zamanda, qeyri-formal məşğulluğa qarşı mübarizənin gücləndirilməsi sahəsində aparılan islahatlarda da müsbət nəticələr verir. Cari ilin ilk rübündə reallaşan ilk sosial paket çərçivəsində minimum əməkhaqqının artımı timsalında bunu aydın görmək olar. Minimum əməkhaqqının artımı yalnız işçilərin təkcə bu gün üçün maaş formasında gəlirlərinin çoxalmasına deyil, həmçinin gələcək sosial təminatlarına müsbət təsir edir. Çünki artan əməkhaqlarından sosial sığorta və işsizlikdən sığorta haqları üzrə ödəmələr də çoxalır. Belə olan halda işçinin fərdi hesabındakı pensiya kapitalı daha çox artır ki, bu da onun gələcək pensiya təminatı, habelə bu və ya digər səbəbdən işini itirərsə, ona təyin olunan işsizlikdən sığorta ödənişinin çox olması baxımından faydalıdır.

Sosial ödənişlərin ünvanlı və aztəminatlı ailələr üçün daha təsirli şəkildə yönəldilməsi məsələsi də dövlətin əsas hədəflərindəndir. Hazırda 70 mindən çox aztəminatlı ailə ünvanlı dövlət sosial yardımı ilə əhatə olunub. Həmin ailə üzvlərinin sayı 300 min nəfərə çatır. Bir ailəyə orta aylıq məbləğ 240 manata yaxındır. (Müqayisə üçün deyək ki, bir ailəyə orta aylıq məbləğ 2018-ci ildə 174,6 manat olub.) Həmçinin, bu yardımı alan ailələrdə olan 1 yaşa qədər uşağa görə isə əlavə 55 manat aylıq müavinət verilir.

İkinci sosial paket çərçivəsində Prezident İlham Əliyevin yeni qanunvericilik təşəbbüsü kimi əmək pensiyasının minimum məbləğinin 25 faiz artırılaraq bu il oktyabrın 1-dən 200 manata çatdırılması cari il ərzində əmək pensiyasının minimum məbləğinin artırılması istiqamətində atılan ikinci mühüm addımdır. Ümumilikdə, həm minimum pensiyanın artımı, həm də dövlət sektorunda əməkhaqlarının artımı 750 min pensiyaçını əhatə edir. Nəticə etibarilə iyun ayında həyata keçirilən sosial islahat paketi 2,1 milyon vətəndaşın əməkhaqqı və pensiya formasında gəlirlərinin ciddi şəkildə artımına imkan verir. Əvvəlcə 116 manatdan 160 manata, oktyabrın 1-dən isə 200 manata çatdırılan bu islahat 660 min nəfəri əhatə edib. Gələn ildən isə onların hər birinin indeksasiyaya görə 220–230 manat pensiya alacağı nəzərdə tutulub.

Dövlət başçısının təqdim etdiyi iki sosial islahat paketi ümumilikdə 4,2 milyon vətəndaşın rifahına ciddi dəstək olub. Cari ildə Prezidentin aylıq təqaüdünün şəhid ailələri üçün 300 manata çatdırılması, müharibə əlilləri üçün sosial müavinət və təqaüdlərin orta hesabla 100 faiz artırılması sosial islahatlar paketinin tərkib hissəsidir. Eyni zamanda, müharibə əlilləri və şəhid ailələrinin minik avtomobilləri ilə təmin edilməsi də diqqətdə saxlanılır. İndiyədək müharibə əlillərinə 6521 minik avtomobili verilib. Dövlət başçısının sərəncamı 2019-cu ildə əlavə olaraq 400-dən artıq avtomobilin, beləliklə, cari ildə müharibə əlillərinə nəzərdə tutulduğundan (180 avtomobil) 3,2 dəfə çox olmaqla 600-ə yaxın avtomobilin verilməsinə imkan yaradıb. Onlardan bu ilin ötən dövründə 377 avtomobil artıq təqdim edilib. Həmçinin Qarabağ müharibəsi əlilləri və şəhid ailələrinə 2019-cu ildə azı 800 mənzil verilməsi nəzərdə tutulub ki, artıq bu ilin ötən dövründə 174 mənzil təqdim edilib. Ümumilikdə, bu vaxta qədər 6828 şəhid ailəsi və müharibə əlili mənzillə təmin olunub.

Məlumdur ki, ikinci sosial paket Azərbaycanda insan kapitalının inkişafına təkan verəcək. Onu da nəzərə almaq lazımdır ki, minimum əməkhaqqının və pensiyaların artırılması daha çox azgəlirli insanların sosial şəraitinin yaxşılaşmasına əhəmiyyətli təsir göstərəcək. Bu baxımdan həm minimum əməkhaqqının, həm də hərbi, hüquq-mühafizə və dövlət orqanlarında, eyni zamanda, ümumtəhsil və peşə məktəblərində maaşların, həm də minimum pensiyaların artımı Azərbaycanda sosial ədalətin gücləndirilməsi, əhali gəlirləri arasında fərqin azaldılması baxımından mühüm önəm daşıyır və iqtisadiyyat gücləndikcə, bu proses davam edəcək. Bunu Prezidentin 28 May Respublika Günü münasibətilə "Buta" sarayında keçirdiyi qəbuldakı çıxışı da təsdiqləyir: "Hesab edirəm ki, biz bundan sonra da bu istiqamətdə tam qətiyyətlə addımlar atacağıq. Çünki vətəndaşların sosial rifahı bizim üçün ən prioritet məsələdir. Ancaq təbii ki, bu, iqtisadi inkişafa bağlıdır. Çünki iqtisadi inkişaf, maddi imkanlar olmasa sosial proqramları həll etmək mümkün olmayacaq. Ona görə iqtisadi sahədə aparılan islahatlara bu gün çox böyük diqqət göstərilir və bu islahatlar artıq nəticə gətirir. Nəticə ondan ibarətdir ki, büdcə daxilolmaları artır. Bu ilin əvvəlindən büdcə daxilolmaları böyük dərəcədə - yüz milyonlarla manat həcmində artmışdır. Bu, bizə əlavə imkanlar yaradır ki, ilk növbədə sosial sahədə bu artım özünü göstərsin".

**Zərifə BƏŞİRQIZI,**
**"Xalq qəzeti"**